# VƏTƏN MÜHARİBƏSİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN TƏMİN OLUNMASI



Ümummilli Lider Heydər Əliyevin həyata keçirməyə çalışdığı, lakin sağlığında tam başa çatdıra bilmədiyi ən mühüm və taleyüklü vəzifə Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması idi. Dərin zəkası və uzaqgörənliyi ilə Ulu Öndər əmin idi ki, bu məsələ gec-tez həllini tapacaq, tarixi ədalət bərpa olunacaq, xalqımız öz torpaqlarını işğaldan azad edəcək, məcburi köçkünlər doğma yurdlarına qayıdacaq və soydaşlarımız əzəli torpaqlarında daim yaşayacaqlar. Bu mühüm vəzifənin gerçəkləşdirilməsini isə o, öz siyasi yolunun layiqli davamçısı, xalqın Lideri və gələcəyin müzəffər sərkərdəsi kimi yetişdirdiyi oğlu, möhtərəm Prezident İlham Əliyevə əmanət etmişdi.

Şuşaya, Qarabağa aparan müqəddəs yolun təməlini ilk olaraq Ulu Öndər Heydər Əliyev qoymuşdur. O, güclü və nizami ordu quruculuğuna start vermiş, vətənə, millətə, bayrağa sonsuz sevgi ilə yoğrulmuş, müasir dövrün tələblərinə cavab verən peşəkar hərbçilərin hazırlanması üçün Ali Hərbi Məktəbin əsasını qoymuş, gənclərin hərbi sahədə təhsil almaları üçün xarici ölkələrə göndərilməsinə şərait yaratmışdır. Məhz həmin gənclər bu gün Qarabağ zəfərinin iştirakçıları, torpaqlarımızı işğaldan azad edən Müzəffər Ordumuzun rəşadətli komandirləridir.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu ordu, Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyətli siyasəti nəticəsində daha da güclənərək qüdrətli bir hərbi gücə çevrildi. Nəticədə, 2020-ci ildə xalqımızın 30 ilə yaxın çəkən torpaq həsrətinə "Dəmir yumruq" əməliyyatı ilə son qoyuldu, ərazi bütövlüyümüz təmin olundu və Ulu Öndərin ən böyük vəsiyyəti gerçəkləşdi.



Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu və tarixi vəsiyyəti Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal altındakı torpaqlarımızın azad edilməsi idi. Bu müqəddəs vəzifəni isə onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev böyük qətiyyət və iradə ilə həyata keçirdi. 44 günlük Vətən müharibəsi xalqımızın gücünü, birliyini və qələbə əzmini nümayiş etdirdi. Bu tarixi zəfərlə bağlı xalqa etdiyi müraciətdə Prezident İlham Əliyev qürurla bəyan etdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik." Bu sözlər yalnız bir oğulun atasına borcunu ödəməsi deyil, həm də bir Liderin xalq qarşısındakı tarixi məsuliyyətini uğurla yerinə yetirməsinin təntənəli ifadəsidir. Bu zəfər həm Ulu Öndərin ideallarının, həm də xalqın güvən və əzminin təntənəsi oldu.

Azərbaycanın suveren hüquqlarının bərpası və beynəlxalq hüquqa əsaslanan ədalətin reallaşması baxımından 44 günlük Vətən müharibəsi tarixi dönüş nöqtəsidir.

Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” açıqlaması Ermənistanın işğalçılıq siyasətinin ən bariz etiraflarından birinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına “Qarabağ Azərbaycandır və nida işarəsi” deməklə sərt reaksiya verdi.

Prezident İlham Əliyev bu dövrü aydın şəkildə təsvir edir: “Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap etdilər və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhər və kəndlərimizin adları dəyişdirildi və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başladılar. Bunu deyən onların Tonoyan soyadlı müdafiə naziri idi. O bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır”.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi.

2020-ci ilin avqust ayında Ermənistan daha bir hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Lakin Azərbaycan Ordusu bu təxribat planını da pozdu.

2020-ci il sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyini yenidən xəbərdar etdi: “Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib… Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

Beləliklə, 2016-cı ilin Aprel döyüşlərindən, 2020-ci ilin İyul döyüşlərindən Ermənistanın hərbi-siyasi rəhbərliyi lazımi dərs çıxarmadı və vəziyyəti daha da gərginləşdirməyə davam etdi.



2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan “Dəmir Yumruq” adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi. Azərbaycan Prezidenti 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin gedişində xalqa ilk müraciətində bütün cəmiyyəti qəti qələbəyə köklədi: “Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Prezident İlham Əliyev xalqa sayca yeddinci müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! …Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq… Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”.

Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox yaşayış məntəqəsi də işğaldan azad edildi, düşmən diz çökdürüldü, onun kapitulyasiya aktına imza atmaqdan başqa çıxış yolu qalmadı.

2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktı- "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" imzalandı. Həmin gün xalqa sayca səkkizinci müraciətində İlham Əliyev milli şüara çevrilmiş "Qarabağ Azərbaycandır və nida" ifadəsinin artıq bütün Qarabağı əhatə etdiyini və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğunu elan etdi: "…nə oldu bəs status? …yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".

44 gün ərzində Azərbaycan Ordusu 300-dən çox şəhər, kənd və qəsəbəni işğaldan azad etdi. 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanatla (Azərbaycan, Ermənistan, Rusiya) Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Şuşa şəhərinin azad edilməsi qələbənin simvoluna çevrildi.

Vətən müharibəsi dünya hərb elmində həm də "XXI əsrin müharibəsi" adını qazanıb. Çətin relyef şəraitində düşmənin onilliklərlə qurduğu mürəkkəb istehkamlar qarşısında müzəffər Azərbaycan Ordusu əsl peşəkarlıq, məharət, yenilməz əzm nümayiş etdirib və ən əsası Vətənə sonsuz məhəbbətlə uğrunda hər cür fədakarlığa istənilən şəraitdə hazır olduğunu bütün dünyaya isbat edib.

Azərbaycan dövləti bu qələbə ilə öz suveren hüquqlarını tam icra etməyə başladı. Ağdam, Laçın və Kəlbəcər rayonları döyüşsüz, diplomatik yolla qaytarıldı. Zəfər Günü (8 Noyabr) və Qarabağ Dirçəlişi dövrü başlandı.

Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünü və konstitusion quruluşunu bərpa etməklə yanaşı, bölgədə yeni geosiyasi reallıq yaratdı. Bu, həm tarixi ədalətin, həm də suverenlik prinsipinin bərpasıdır.

Qarabağ Zəfərinin məntiqi davamı olaraq, 2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun cəmi 23 saat 43 dəqiqə ərzində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz nəinki ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi. Tarixdə nadir hallarda belə qətiyyətli və qısa müddətdə əldə olunan parlaq hərbi-siyasi qələbəyə rast gəlinir. Bu nailiyyət, Azərbaycan xalqının iradəsinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətinin və rəşadətli Ordumuzun peşəkarlığının bariz nümunəsidir.

2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Bayrağını ucaldan Prezident İlham Əliyevin söylədiyi sözlər isə tarixə qızıl hərflərlə yazıldı və bu torpağın hər bir övladının yaddaşına həkk olundu: ***"Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*** Bu ifadə təkcə qələbənin elan olunması deyil, həm də xalqımızın tarixi haqqının bərpasının rəmzi oldu.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Azərbaycanın dövlətçilik tarixində qazanılmış böyük uğurların məntiqi davamıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə sərəncamı, ölkə Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünü və 44 günlük Vətən müharibəsində Qələbənin 5-ci ilini nəzərə alaraq imzalamışdır.

Məhz həmin Zəfər müharibəsi nəticəsində dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur.

"Konstitusiya və Suverenlik İli" təşəbbüsü, bir tərəfdən Azərbaycanın hüquqi-siyasi dayaqlarının daha da möhkəmləndirilməsinə, digər tərəfdən isə işğaldan azad edilmiş ərazilərdə Konstitusiya quruluşunun, dövlət suverenliyinin və idarəetmə mexanizmlərinin tam bərqərar olmasına yönəlib. Bu qərar həm tarixi ədalətin təntənəsini, həm də ölkənin gələcəyə inamla addımladığını simvolizə edir.

Konstitusiyanın Qarabağ və Şərqi Zəngəzurda tətbiqi və suverenliyin bərpası Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələdir. Bu ərazilərdə Konstitusiyanın tətbiqi aşağıdakı əsas istiqamətlər üzrə həyata keçirilir:

1. Dövlət hakimiyyətinin bərpası – Mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyəti təmin olunur, yerli idarəetmə orqanları yaradılır.

2. Konstitusiya hüquqlarının təminatı – Qarabağ və Şərqi Zəngəzurda yaşayan və qayıdacaq vətəndaşlara Konstitusiya ilə təsbit olunmuş hüquq və azadlıqlar təmin edilir.

3. Məhkəmə və hüquq-mühafizə sisteminin qurulması – Prokurorluq, polis və məhkəmə strukturları tam fəaliyyətə başlayır.

4. Ərazi bütövlüyünün hüquqi təsdiqi – Bu ərazilərdə dövlət sərhədləri üzərində tam nəzarət bərpa olunur və beynəlxalq hüquqla tanınmış sərhədlər çərçivəsində Azərbaycanın vahid Konstitusiya məkanı formalaşır.

5. İqtisadi və sosial inteqrasiya – Bölgələrin sosial-iqtisadi inkişafı və reinteqrasiyası üzrə proqramlar icra olunur.

Bu proses Azərbaycanın daxili suverenliyinin tam bərpası və vahid hüquqi məkanının möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Beləliklə, Konstitusiyaya əsaslanan hüquqi çərçivənin işğaldan azad edilmiş ərazilərdə tətbiqi, dövlətimizin suveren hüquqlarının tam şəkildə gerçəkləşdirilməsi və bu bölgələrin hərtərəfli inkişafının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu yanaşma, həm də Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında, dövlətçilik prinsiplərinin möhkəmləndirilməsində və vahid hüquqi məkanın formalaşdırılmasında mühüm rol oynayır.

Bu gün Azərbaycan xalqı tarixinin yeni, parlaq inkişaf mərhələsinə qədəm qoyur. Artıq dövlətimizin suverenliyi tam təmin olunub, ərazi bütövlüyü bərpa edilib, sərhədlərimiz isə toxunulmazdır. Müstəqil Azərbaycan dövləti öz mövqeyini beynəlxalq aləmdə daha da möhkəmləndirmək və güclü şəkildə qorumaq əzmindədir. Bu məqsədlə lazım olan bütün əsas dayaqlar mövcuddur: düşünülmüş və balanslı xarici siyasət, dayanıqlı və güclü iqtisadiyyat, xalqla dövlətin sarsılmaz birliyi və bütün bu qüvvələri bir araya gətirən qətiyyətli, uzaqgörən Lider.

Möhtərəm Prezident İlham Əliyevin dediyi kimi: "Dövlətlər zəif olmur, onların rəhbərləri zəif olur." Məhz buna görə də bu gün Azərbaycan özünün güclü lideri sayəsində tarix yazır, qələbələr qazanır və yeni dövrə inamla addımlayır. Qələbə yalnız xalqı və rəhbəri bir olan dövlətlərə nəsib olur — Azərbaycan bu həqiqəti öz əməlləri ilə sübut etmişdir.